


# Xocalıya köçən ailələrə mənzillərinin açarları təqdim olunub











**Ölkənin müxtəlif ərazilərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış keçmiş məcburi köçkün ailələrindən ibarət növbəti köç karvanı Xocalıya çatıb.**

AZƏRTAC xəbər verir ki, dünən 9 ailə olmaqla, 34 nəfər Xocalı sakini öz yurduna qovuşub.

İşğaldan azad olunmuş torpaqlara keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən növbəti köç karvanı ilə Xocalı rayonuna çatan ailələrə mənzillərinin açarları təqdim olunub.

Bu mərhələdə Xocalı şəhərinə 1 ailə (5 nəfər), rayonun Ballıca kəndinə isə 8 ailə (29 nəfər) köçürülüb. Xocalıya köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub. Ailələrə evlərinin açarlarının təqdimatı mərasimində çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorunun müavini Mahmud Əfəndiyev bildirib ki, bərpa edilən evlərdə məskunlaşan ailələrin məşğulluq məsələləri daim diqqətdə saxlanılır. Dövlət orqanları və özəl sektor tərəfindən işlə təminat həyata keçirilir. Kənd elektrik enerjisi, qaz, içməli su və yüksəksürətli internet xətti ilə təmin edilib.

Keçmiş məcburi köçkünlərə mənzillərin açarı təqdim edilib və ailələr yeni evlərində yerləşiblər.

Qeyd edək ki, budəfəki köç də daxil olmaqla, Xocalı şəhərində 346 nəfərdən ibarət 86 ailənin, Xocalının Ballıca kəndində isə 180 ailənin, yəni, 840 nəfərin daimi məskunlaşması təmin olunub.



Azərbaycan. - 2025.- 23 may (№106).- S.9.